# HƏR YERDƏ AZƏRBAYCAN BAYRAĞI

**Adam qürur hissi keçirir. Azərbaycan Ordusu işğal altında olan yaşayış məntəqələrindəki yüksəklikləri azad edəndən sonra sanki bütün insanlarda bir bayraq sevgisi, bir bayraq məhəbbəti bir qədər də artıb. Çünki Azərbaycan ordusu işğaldan azad etdiyi məntəqələrə və yüksəkliklərə üçrəngli bayrağımızı sancıb.**

Aprelin 3-dən Bakı şəhərində əksər ali məktəblərin tələbələri əllərində bayraq küçələrdə hərəkət edir və bayrağın şanına təriflər deyirlər. Bəzi tələbələr isə hətta bayrağa bürünüblər. Metronun ”Elmlər Akademiyası” stansiyasından çıxıb ”Azərbaycan” nəşriyyatına piyada gələrkən bir daha gənclərimizin bayraq sevgisinin şahidi oldum. Hətta əksər avtomobillərdə Azərbaycan bayrağı var idi. Milli Elmlər Akademiyasının qabağından keçəndə isə 20-yə yaxın tələbə gəncin əllərində çoxlu sayda Azərbaycan bayrağını gördüm. Bu mənə xüsusi bir ovqat və sevinc gətirdi. Həmin mənzərəyə sevinən təkcə mən deyildim. Orta və yaşlı nəslin nümayəndələri gənclərin bayraq sevgisinə baxaraq fərəhlənirdilər.

Bu gün əksər binaların eyvanlarında və mənzillərdə Azərbaycan bayrağının dalğalandığını görmək olar. Bu da təsadüfi deyil, çünki Azərbaycan prezidenti İlham Əliyev və Milli Ordumuz bu bayrağı ucalığa qaldırıb. Və bu bayraq indi erməni işğalından azad olunmuş 8 yüksəkliyin hər birində yenidən dalğalanır. Azərbaycan bayrağı zaman-zaman öz qüdrətini və şöhrətini milyonlarla insanın qəlbində özünə yer tapıb. İndi balaca uşaqlar da, məktəb yaşlı şagirdlər də Azərbaycan bayrağını öpüb gözlərinin üstünə qoyur, bu Vətənə, bu torpağa sadiq olduğunu bildirirlər.

Bizim millət ən ağır, ən çətin gündə birləşməyi bacarır. Millət birləşəndə daha möhtəşəm və daha qüdrətli olur. Bu birliyi biz bir daha Azərbaycan Ordusunun zəfər çaldığı günlərdə gördük. Gördük ki, ölkəmizin bütün şəhər, rayon və kəndlərində insanlar hamısı ayağa qalxaraq ölkə prezidenti və ordu ilə həmrəy olduqlarını bəyan edirlər. Ayrı-ayrı şəhərlərdə və rayonlarda yığıncaqlar, toplantılar və yürüşlər keçirərək xalq ordu ilə həmrəyliyini ifadə edir. Təbii ki, bu cür coşğu və sevgi Azərbaycan xalqının birliyinin və bütövlüyünün rəmzidir desək yanılmarıq.

Aprelin 5-də bizim mühasib Tahirə xanımın otağında bir xanımı gördüm. Tahirə xanım həmin qadına dedi ki, Faiq cəbhədən yenicə qayıdıb. Ordakı xəbərlərin hamısını bizim qəzetə o yazıb göndərib. Öyrəndim ki, həmin qadın əslən ermənistanlıdır və gözünün ağı-qarası bir övladı olan Kənan Akif oğlu Səmədli xeyli müddətdir ki, Qazaxdakı ”N” hərbi hissələrinin birində xidmət edir. Döyüşlər başlayandan sonra Nanə xanımın oğlu ilə əlaqəsi kəsilib. Onun oğlu Kənan Səmədli rabitəçidir. Xanımın gözlərində bir kədər vardı, mən cəbhədən danışanda gözləri dolur və kədərli bir görkəm alırdı. Elə ki əsgərlərimizin 8 yüksəkliyi işğaldan azad etdiyini ona deyəndə elə bil ki xanıma dünyanı bağışladın və bir anlıq onun qəlbindəki kədər əridi, çöhrəsinə sevinc çökdü. Xanım dedi ki, oğlum 3 aydan sonra xidməti başa çatdıracaq, ancaq buna baxmayaraq o, komandirinin döyüşdə şəhid olmasından sonra heç nədən qorxmur və özü də şəhid olmağa hazırdır. Sonra da əlavə etdim ki, ürəyinizi buz kimi saxlayın, sizin oğlunuz sağ-salamatdır. Döyüşlər getdiyinə görə valideynlərlə əlaqə saxlamaq bir qədər çətinləşib. Səbr eləyin tezliklə oğlunuz barəsində şad xəbər eşidərsiniz.



Aprelin 5-də isə günortadan sonra cəbhədə atəşkəsin elan olunduğu bildirildi. Təbii ki, qısa zaman kəsiyində Azərbaycan Ordusu çox böyük tarixi qələbə qazanaraq 8 yüksəkliyi erməni işğalçılarından azad edib. Bu Azərbaycan əsgərinin bir daha möhtəşəmliyini və güclülüyünü təsdiq edir. Xalq bu çətin məqamlarda ordu ilə həmrəy olduğunu bildirir, hətta xarici ölkələrdə yaşayan həmvətənlərimiz döyüş bölgəsinə gəlib vuruşmaq istədiklərini deyiblər. Canı-qanı bizimlə bir olan türk qardaşlarımız da Qarabağ döyüşlərində iştirak etmək istədiklərini bəyan ediblər.

Ümumiyyətlə, bu ağır günlərdə xarici ölkələrdə yaşayan çoxlu sayda azərbaycanlılar və eləcə də məmləkətimizdəki həmyerlilərimiz Müdafiə Nazirliyinə müraciət edərək vuruşmağa getmək istədiklərini dilə gətiriblər.

**Bunların hamısı çox gözəldir. Ən azından ona görə ki, bu gün millətdə çox yüksək ruh var və bu xalq, bu millət bütövlüklə hamısı əlinə silah götürərək torpaqlarımızın işğaldan azad edilməsinə tam hazırdır. Təki Ali Komandan, prezident cənab İlham Əliyev əmr versin. Bu əmri yüz minlərlə gənclər və könüllülər gözləyirlər. Onlar Azərbaycan bayrağına bürünərək o bayrağı işğaldan azad edəcəkləri məntəqələrə sancmaq istəyirlər. Allah-Təala bu arzumuzu tezliklə gerçəkləşdirsin.**



**Faiq QİSMƏTOĞLU**